**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANIN ŞİMAL SƏRHƏD RAYONLARININ DEMOQRAFİK VƏ MƏSKUNLAŞMA PROBLEMLƏRİ

İxtisas: 5401.01 – İqtisadi coğrafiya

Elm sahəsi: Coğrafiya

İddiaçı: **Gülnarə İslam qızı Abdullayeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun "Demoqrafiya və əhali coğrafiyası" şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | coğrafiya elmləri doktoru, professor<br>**Zakir Namin oğlu Eminov** |
| Rəsmi opponentlər: | coğrafiya elmləri doktoru, dosent<br>**Məlikməmməd Xanoğlan oğlu Məmmədov** |
| | coğrafiya üzrə fəlsəfə doktoru<br>**Saleh Qasım oğlu Nağıyev** |
| | coğrafiya üzrə fəlsəfə doktoru<br>**Firuzə Mübariz qızı Cəfərova** |

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi * BAKI DÖVLƏT UNİVERSİTETİ p.h.ş. * Ministry of Science and Education of the Republic of Azerbaijan * BAKU STATE UNIVERSITY l.e.p.l

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin Coğrafiya fakültəsi nəzdində fəaliyyət göstərən FD 2.51 Dissertasiya Şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ______________ | coğrafiya elmləri doktoru, professor<br>**Çingiz Niyazi oğlu İsmayılov** |
| Dissertasiya şurasının elmi katibi: ______________ | coğrafiya üzrə fəlsəfə doktoru, dosent<br>**Sahilə Əbiş qızı Allahverdiyeva** |
| Elmi seminarın sədri: ______________ | coğrafiya elmləri doktoru, dosent<br>**Aydın İsmayıl oğlu İbrahimov** |

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
BAKI DÖVLƏT UNİVERSİTETİ
Ministry of Science and Education of the Republic of Azerbaijan
Baku State University l.e.p.l.
BDU ELMİ KATİB
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm:
(S.A.A.)
"10" 03 2025

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Sərhəd regionları potensial hərbi müdaxilə yeri və ya ölkələrin iqtisadi və mədəni inteqrasiya zonası kimi qəbul edildiyindən dövlət üçün hər zaman strateji əhəmiyyət kəsb edib. Dünya siyasətində baş verən dəyişikliklər, adətən, ölkənin geosiyasi mövqeyinə və onun qonşu dövlətlərlə olan münasibətlərinə təsir edir. Təəssüflər olsun ki, sərhəd regionları həmişə böyük siyasətin girovları olublar. Belə ki, onların inkişaf istiqaməti əksər hallarda dövlətlər arasında olan qarşılıqlı münasibətdən asılı olub. Bu baxımdan sərhəd regionlarının demoqrafik və məskunlaşma probleminin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.

Dünyada baş verən siyasi proseslər, iqtisadiyyatda qloballaşmanın təsir dairəsinin genişlənməsi və ölkələrdə baş verən demoqrafik proseslərə marağın artması bu elmi tədqiqatın aparılmasını zəruri etmişdir. Tədqiqat regionu olan Azərbaycanın şimal sərhəd rayonları Gürcüstan Respublikası və Rusiya Federasiyası ilə sərhəddə, tranzit əhəmiyyətli yolların üzərində yerləşdiyindən strateji əhəmiyyət kəsb edir. Region, həmçinin, milli-etnik xüsusiyyətlərinə, coğrafi mövqeyinə, təbii şəraitinə görə də respublikamızın digər regionlarından fərqlənir ki, bu da mövzunun aktuallığını daha da artırır.

Tədqiqat apardığımız şimal rayonlarının sərhədlərinin uzunluğu Rusiya Federasiyası ilə 370 km-dir. Bunun 252 km-i Şəki-Zaqatala iqtisadi rayonunun, 15,4 km-i Xaçmaz və 102,6 km-i Qusar inzibati rayonlarının payına düşür. Rusiya Federasiyası ilə sərhəddin 40 km-i Samur çayı üzərindən, 330 km-i isə dağlıq, meşəlik və düzənlik ərazilərdən keçir. Şimal sərhəd rayonlarının Rusiya Federasiyası ilə çətin mühafizə olunan ərazilərdən keçən sərhədi ölkəmiz üçün strateji və hərbi baxımdan böyük əhəmiyyət kəsb edir. Rusiya ilə sərhəd bəzi yerlərdə yüksək dağ silsilələri üzrə keçdiyinə görə quru əlaqələri yalnız Xaçmaz və Qusar inzibati rayonları ilə mümkündür. Gürcüstan Respublikasıyla Azərbaycanın şimal rayonlarının sərhədi isə 235,6 km təşkil edir (sərhədlərin uzunluğu ArcGİS üsulu ilə hesablanmışdır).

Sərhəd regionları müəyyən bir ölkənin sərhəd xətti boyunca yerləşən bölgələrdir. Bu regionlar coğrafi mövqelərinə, iqtisadi, mədəni və strateji əhəmiyyətlərinə görə fərqli xüsusiyyətlərə malikdirlər. Tədqiqat apardığımız Azərbaycanın şimal sərhəd rayonları həm tarixi, həm də strateji mövqeyinə görə mühüm əhəmiyyət daşıyırlar. Ümumilikdə Azərbaycan Respublikasının quru sərhədinin uzunluğu 2647 km, su sərhədinin uzunluğu 816 km-dir.

Sərhədboyu ərazilərin mənimsənilməsi və məskunlaşması sistemlərinin inkişaf dinamikasını öyrəndikdə bir çox yerli və xarici mütəxəssislərin– Ş.Y.Göyçaylı, Ş.M.Muradov, V.Ə.Əfəndiyev və S.Q.Nağıyev, N.H.Əyyubov, Z.N.Eminov, Z.T.İmrani, Y.V.Savelyeva, O.V.Tolstoquzova, O.A.Zotova, T.A.Tereçenko, X.O.Gonzalezin, N.Bassols, C.Fernandez, N.M.Hansen və digərlərinin elmi əsərlərinə müraciət etmişik.

Azərbaycanın şimal iqtisadi rayonlarını əhatə edən tədqiqat işləri çox olsa da, indiyə qədər bu ərazilər sərhəd regionu kimi öyrənilməmişdir. Bu da mövzunun aktuallığını artırır və dissertasiya işinin yerinə yetirilməsini zəruri edir.

**Tədqiqatın obyekti və predmeti** səkkiz inzibati rayonu əhatə edən şimal sərhəd rayonlarının məskunlaşma və demoqrafiya problemlərinin öyrənilməsidir. Şimal sərhəd rayonlarının sahəsi 11400 kv.km, əhalisi 915,3 min nəfərdir. Bunun 265,8 min nəfəri (29%) şəhər, 649,5 min nəfəri (71%) isə kənd əhalisidir (01.01.2022-ci il vəziyyətinə). Region Balakən, Qax, Şəki, Zaqatala, Qəbələ, Oğuz, Qusar və Xaçmaz inzibati rayonlarını əhatə edir. Respublika ərazisinin 13,2 %-ni və əhalisinin 9%-ni təşkil edən inzibati rayonlar iqtisadi və siyasi-coğrafi mövqe baxımından mühüm strateji ərazilərdir. Əhalinin sıxlığı isə hər $km^2$-də 80 nəfərdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi Azərbaycanın şimal sərhəd rayonlarında əhalinin demoqrafik və məskunlaşma xüsusiyyətlərini öyrənmək, bu sahədə mövcud olan problemləri ortaya çıxarmaq və onların həlli yollarını müəyyənləşdirməkdir. Bunun üçün aşağıda qeyd olunan vəzifələrin yerinə yetirilməsi qarşıya qoyulmuşdur:

- sərhədboyu ərazilərin mənimsənilməsi və məskunlaşdırılmasının geostrateji əhəmiyyətini tədqiq etmək, bu

problemin dünyada öyrənilmə səviyyəsini araşdırmaq;

- əhalinin təbii artımı, strukturu, miqrasiyası, əmək ehtiyatları və onlardan istifadə yollarını araşdırmaq və demoqrafik inkişaf xüsusiyyətlərini müəyyən etmək;
- şimal sərhəd rayonlarında əhalinin yüksəklik qurşaqları, kənd və şəhər yaşayış məntəqələri üzrə məskunlaşmasını tədqiq etmək, məskunlaşmanın səmərəli təşkili yollarını aşkar etmək;
- demoqrafik inkişaf və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması yollarını müəyyən etmək.

**Tədqiqatın metodları.** Dissertasiya işinin yazılmasında müqayisəli təhlil, çöl-tədqiqat, müşahidə, statistik, kartoqrafik, tarixi-coğrafi yanaşma və s. tədqiqat metodlarından istifadə edilmişdir. Tərtib edilmiş xəritələr ArcGİS proqram təminatında hazırlanmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Aparılan elmi-tədqiqat işinin nəticəsi olaraq müdafiəyə aşağıdakı müddəalar təqdim edilir:

- Sərhəd rayonlarının məskunlaşmasının geostrateji əhəmiyyətinin müəyyənləşdirilməsi;
- Şimal sərhəd rayonlarında demoqrafik inkişafın əsas meylləri və regional xüsusiyyətlərinin araşdırılması;
- Şəhər və kənd məskunlaşmasının müasir vəziyyəti və baş verən dəyişikliklərin qiymətləndirilməsi;
- Demoqrafik inkişafın nizamlanmasının və əhalinin məskunlaşmasının müəyyən edilmiş prioritet istiqamətləri.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işində aşağıdakı elmi yeniliklərin olduğunu qeyd etmək olar:

- Azərbaycan Respublikasının qonşu dövlətlərlə bilavasitə sərhədi olan 32 inzibati rayonu var. İlk dəfə olaraq respublikamızın şimalında yerləşən 8 inzibati rayon və orada gedən demoqrafik proseslər sərhəd regionu kimi tədqiq olunmuşdur;
- Şimal sərhəd rayonlarında demoqrafik inkişaf və əhalinin məskunlaşmasında olan meyllər iqtisadi-coğrafi cəhətdən araşdırılaraq sərhədboyu ərazilərin öyrənilmə istiqamətləri qruplaşdırılmışdır;
- Rusiya Federasiyası və Gürcüstan Respublikası ilə həmsərhəd olan şimal sərhəd rayonlarının geostrateji əhəmiyyəti nəzərə alınaraq ölkənin ərazi bütövlüyü, hərbi-siyasi durumu baxımından əhalinin

məskunlaşmasının vacibliyi elmi cəhətdən araşdırılmış və sərhədboyu ərazilərin cəlbediciliyinə görə zonalaşdırılması aparılmışdır;

- Şimal sərhəd rayonlarında əhalinin təbii artımı, milli-etnik tərkibinin və cins-yaş strukturunun dəyişməsi, miqrasiya prosesləri və onun nəticələri araşdırılmışdır. Öz strateji mövqeyi ilə seçilən şimal sərhəd rayonlarının yüksək dağlıq ərazilərində əhalinin sayının kəskin azalması müəyyən edilmiş və eyni zamanda ilk dəfə olaraq şimal sərhəd rayonlarında hər bir inzibati rayon üzrə əhalinin miqrasiya intensivliyi və miqrasiya əmsalı hesablanmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işində verilən tövsiyə və təkliflər şimal sərhəd rayonlarında əhali məskunlaşmasının strateji əhəmiyyətini müəyyən etmək və demoqrafik inkişaf sahəsində mövcud olan problemlərin aradan qaldırılması üçün əhəmiyyətlidir. Aparılan təhlillərin nəticələri regionlarda sosial-iqtisadi inkişaf üzrə Dövlət proqramlarının hazırlanmasında, regionlarda əhalinin öyrənilməsi üzrə tədris işlərində istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin hazırlanması zamanı aparılan tədqiqatın əsas müddəaları aşağıdakı beynəlxalq və respublika səviyyəsində keçirilən elmi forum və konfranslarda müzakirə edilmişdir: Ümummilli lider H.Ə.Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş "Qlobal dəyişkənliklər şəraitində geosistemlərin təbii ehtiyat potensialının qiymətləndirilməsi və səmərəli istifadəsi" mövzusunda Beynəlxalq elmi-praktik Konfransı (Bakı, 2013), "Географические проблемы туризма, краеведения и экологии" mövzusunda beynəlxalq elmi-praktiki konfrans (Almatı, 2014), "Coğrafiya: nəzəriyyə, praktika və innovasiya" mövzusunda keçirilmiş respublika elmi konfransı (Bakı, 2015), "Bazar iqtisadiyyatı şəraitində torpaq idarəçiliyi: nailiyyətlər və müasir çağırışlar" mövzusunda ƏMDK və AMEA-nın təşkil etdiyi respublika elmi konfransı (Bakı, 2018), "Azərbaycanda və Rusiyada insan coğrafiyası: XXI əsrdə inkişafın əsas yolları" mövzusunda keçirilən ictimai coğrafiyaçıların beynəlxalq (Azərbaycan-Rusiya) elmi Konfransı (Bakı-2019), "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında təbii təsərrüfat sistemlərinin təşkili və idarə edilməsi" mövzusunda elmi-praktiki konfrans (Bakı, 2022), "Coğrafiyanın

müasir problemləri: elm və təhsilin inteqrasiyası” mövzusunda beynəlxalq elmi-praktiki konfrans (Bakı, 2022), “Географические аспекты устойчивого развития регионов” mövzusunda V Beynəlxalq elmi-praktiki konfrans (Qomel, 2023 25-26 may), “Azərbaycanda müasir iqlim dəyişmələrinin təbii komplekslərə və təsərrüfat sisteminə təsiri” mövzusunda beynəlxalq elmi-praktiki konfrans (Bakı, 2024)

Tədqiqat işinin məzmununa aid 18 adda elmi məqalə və konfrans materialı çap edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Elm və Təhsil Nazirliyi akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun “Demoqrafiya və əhali coğrafiyası” şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş (5 səhifə), 4 fəsil (I fəsil (14 səhifə), II fəsil (49 səhifə), III fəsil (34 səhifə), IV fəsil (31 səhifə)), nəticə ( 4 səhifə), 106 adda istifadə olunmuş ədəbiyyat siyahısından-11 səhifə, 29 cədvəl, 10 xəritə, 10 qrafik, 2 düstur və 11 şəkildən ibarətdir. Dissertasiya işi 150 kompüter səhifəsi həcmindədir və şəkilsiz, cədvəlsiz, qrafiksiz, ədəbiyyat siyahısız 181014 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Giriş** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, məqsəd və vəzifələri, tədqiqatın obyekti və predmeti, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, elmi yenilikləri, aprobasiya və tətbiqi verilmişdir.

**Birinci fəsildə “Sərhədboyu ərazilərin mənimsənilməsi və məskunlaşmasının geostrateji əhəmiyyəti**”ndən bəhs olunur. Müasir dövrümüzdə əhalinin məskunlaşmasının geostrateji əhəmiyyətinin, xüsusilə sərhədboyu ərazilərdə öyrənilməsi böyük maraq doğurur. Ümumiyyətlə, sərhədboyu ərazi dedikdə, regional tədqiqat obyekti kimi birbaşa dövlət sərhədinə bitişik hər hansı bir ölkənin ərazisinin və ya su sahəsinin bir hissəsi qəbul edilir. Sərhədboyu ərazilər

öyrənildikdə tədqiqatın ölkə daxilinə doğru nə qədər uzandığını birmənalı şəkildə müəyyənləşdirmək çətindir. Məsələn, Rusiya Federasiyası sərhədboyu əraziləri öyrəndikdə dövlət sərhədindən daxilə doğru 5 km, Qazaxıstan Respublikasında isə 25 km məsafə qəbul edilir. Bu baxımdan, sərhədboyu ərazilərin tədqiqatı aparıldıqda inzibati ərazi vahidi əsas götürülür[1]. Lakin bu zaman inzibati ərazi vahidi çərçivəsində sərhədboyu ərazilərdə məskunlaşma sxeminin statusu müəyyən edilərkən əsas müddəalardan biri geosiyasi, geostrateji və geoiqtisadi üstünlüklərə nail olmaq üçün yaşayış məntəqələrinin inkişafı və ərazi təşkili baxımından regional hədəf proqramlarının hazırlanmasıdır. Çünki bu ərazilər dövlət üçün həmişə strateji əhəmiyyət kəsb edib. Azərbaycanın dövlət sərhədi Azərbaycan Respublikası Milli Məclisinin qərarları ilə müəyyən edilir. Respublikamızın həmsərhəd dövlətləri ilə rəsmiləşdirilməyən sərhədləri dövlətlərarası müqavilə ilə təsbit edilir. Azərbaycan Respublikasının dövlət sərhədində lazımi qaydanı təmin etmək məqsədi ilə müvafiq icra hakimiyyəti orqanı sərhədboyu zona müəyyən edir. Sərhədboyu zonanın hüdudları müvafiq sərhədyanı rayonların ərazisində, yerli şəraitdən asılı olaraq təyin edilir. Eni 1 km-dək olan sərhədboyu zolaq bilavasitə Azərbaycan Respublikasının dövlət sərhədi xətti boyunca müəyyən edilir[2].

Azərbaycanın şimal sərhəd rayonlarının Rusiya Federasiyası və Gürcüstan Respublikası ilə sərhəddə yerləşməsi onlara olduqca böyük geosiyasi əhəmiyyət verir. Region həm də xarici iqtisadi əlaqələr baxımından önəmli bir bölgədir. 1990-cı ilin əvvəllərindən başlayaraq Rusiya Federasiyası, Azərbaycan Respublikası və Dağıstan Respublikası arasında sərhədlərin delimitasiyası və Samur çayının su ehtiyatlarının bərabər bölünməsi haqqında məsələ qaldırılmışdır. Bu məsələnin qaldırılması Azərbaycan tərəfindən etirazla qarşılanmışdır. Buna səbəb olaraq Bakı və Sumqayıt şəhərlərində içməli suyun qıtlığı və həmçinin dənizsahili ərazilərdə suvarılan torpaqlarda su çatışmazlığına görə yarana biləcək iqtisadi itkilər göstərilib. Əksinə,

[1] Артеменко С.В. Трансграничные регионы: научные основы географического исследования. Брест: БрГУ, 2012. 145 с.

[2] Azərbaycan Respublikasının dövlət sərhədi haqqında Azərbaycan Respublikasınnın 1991-ci il 9 dekabr 13№ li Qanunu.

Azərbaycan Samur çayının su ehtiyatlarından istifadəni çoxaltmaq niyyətində idi. Bu səbəbdən də 2008-ci ildə Samur-Abşeron kanalının rekonstruksiyası işlərinə başlanılmışdır. 28 avqust 2010-cu ildə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında sərhədlərin delimitasiyası haqqında, həmçinin Samur çayının suyunun rasional istifadəsi və su resurslarının qorunması barədə razılaşma imzalanmışdır. Bu razılaşmaya əsasən bu iki dövlət arasındakı sərhəd Samur çayının sağ sahilindən su şəbəkəsinin ortasına keçirilmişdir. Bununla da delimitasiya prosesi bitmişdir.

Gürcüstan Respublikası ilə sərhədlərin müəyyən edilməsi isə tam başa çatmamışdır. Sərhədlərin yalnız 59%-i razılaşdırılmışdır.

Sərhəd bölgələrində ən vacib prioritet tədbirlərin həyata keçirilməsi üçün ilk öncə elmi əsaslarla işlənilmiş kompleks tədqiqat işləri aparılmalı və onların əsasında strateji dövlət proqramları hazırlanaraq həyata keçirilməlidir. Strateji dövlət proqramları hazırlanan zaman aşağıdakı tədbirlər mütləq şəkildə nəzərə alınmalıdır:

- nisbətən əlverişli şəraitə malik olan sərhədboyu ərazilərdə məskunlaşma sistemlərinin inkişafı yollarının müəyyən edilməsi;
- sərhədboyu ərazilərdə yaşayış məntəqələrinin sosial-iqtisadi inkişafı (sosial infrastrukturun mövcudluğu, əhalinin məşğulluğu, iş yerləri ilə təminat və s.) potensialının öyrənilməsi;
-sərhədboyu yaşayış məntəqələrindən keçən magistral avtomobil və dəmir yollarının bazasında nəqliyyat-kommunikasiya infrastrukturunun formalaşması və mövcud olanların inkişaf etdirilməsi üçün tədbirlər sisteminin hazırlanması;
-sərhədboyu ərazilərin təbii şəraiti (əsasən, iqlim ehtiyatları və relyef xüsusiyyətləri) və turizm-rekreasiya ehtiyatları öyrənilməklə istirahət mərkəzlərinin yaradılması üçün vacib potensial müəyyən edilməlidir;
- sərhədboyu ərazilərdə ekoloji vəziyyətin öyrənilməsi, ətraf mühitin yaxşılaşdırılması (meşələrin bərpası, məişət tullantıları idarə edilməsi və s.) üçün tədbirlərin görülməsi vacibdir.

Sərhədboyu bölgələr bir neçə istiqamətdə öyrənilir. Bunları şəkil 1-dən daha aydın görmək olar.




**Şəkil 1. Sərhədboyu bölgələrin öyrənilmə istiqamətləri**
(Sxem müəllif tərəfindən tərtib olunmuşdur)

Birinci fəsildə həmçinin tədqiqatın nəzəri-metodiki əsasları da təhlil olunmuşdur. Sərhədboyu ərazilərdə məskunlaşma sistemləri öyrənildikdə yaşayış məntəqələrinin tipi, onlarda əhalinin sıxlığı, yaş-cins tərkibi, təsərrüfat xüsusiyyətləri və miqrasiyası mütləq şəkildə nəzərə alınmalıdır[3].

Biz sərhədboyu ərazilərin mənimsənilməsini öyrəndikdə, ilk öncə, məskunlaşma sistemini təhlil etməliyik. Azərbaycan Respublikasında əhalinin demoqrafik inkişafı və məskunlaşmasının tədqiqinə, əsasən, keçən əsrin ortalarında başlanmışdır. Ş.Y.Göyçaylının “Azərbaycan SSR kənd əhalisinin məskunlaşması coğrafiyası” dissertasiya işi (1964), Ə.M.Hacızadənin “Azərbaycan əhalisi və onun məskunlaşması” monoqrafiyası (1965) bu sahədə ilk sanballı tədqiqat işləri olmuşdur. Sonrakı dövrdə bir çox tədqiqat və dissertasiya işlərində kənd əhalisinin məskunlaşması demoqrafik inkişafla qarşılıqlı əlaqədə və regional aspektdə ayrı-ayrı iqtisadi-coğrafi rayonlar üzrə aparılmışdır. Bunlara Ş.Q.Dəmirqayayevin “Quba-Xaçmaz” (1971), N.H.Əyyubovun “Gəncə-Qazax” (1983), M.O.Sadıqovun “Lənkəran-Astara” (1983) regionlarını əhatə edən namizədlik dissertasiyaları aiddir. Sərhədboyu ərazilərdə yerləşən

---
[3] Əfəndiyev V.Ə., Nağıyev S.Q. Əhali coğrafiyası. Bakı: Bakı Universiteti, 2006, 338 s.

yaşayış məntəqələrinin formalaşması, onların müxtəlif istiqamətlərdə inkişafının təmin edilməsi günümüzün ən aktual məsələlərindən biridir. Çünki, bu ərazilər yalnız geosiyasi deyil, həmçinin geohərbi dayanıqlığın təminatçısı kimi çıxış edir.

Dissertsiyanın ikinci fəslində **"Azərbaycanın şimal sərhəd rayonlarında demoqrafik inkişafın xüsusiyyətləri"** təhlil olunmuşdur. Bu fəsildə 5 bölüm üzrə şimal sərhəd regionlarında əhalinin təbii və mexaniki artımı, əhalinin sayının dinamikası, əhalinin cins-yaş və milli etnik tərkibi, əmək ehtiyatları tərəfimizdən araşdırılmışdır.

Tədqiqat apardığımız Azərbaycanın şimal sərhəd rayonları respublikamızın strateji əhəmiyyət kəsb edən regionudur. Şimaldan Rusiya Federasiyası, şimal-qərbdən Gürcüstan Respublikası ilə həmsərhəd olan regionda 2022-ci ildə  9 şəhər, 20 qəsəbə və 561 kənd yaşayış məntəqəsi qeydə alınmışdır.




**Qrafik 1. Azərbaycanın şimal sərhəd rayonlarında əhalinin təbii artımı, doğum və ölüm göstəriciləri, nəfərlə**

Azərbaycanın şimal sərhəd rayonlarında əhalinin təbii artımını 1990-2020-ci illər üzrə təhlil etsək gösrərik ki, azalma baş vermişdir. Şimal sərhəd rayonlarında 1990-cı ildə təbii artım 14618 nəfər olduğu halda 2020-ci ildə bu göstərici xeyli azalmış və 5558 nəfər olmuşdur. Azalma tendensiyası 1990-cı ildə başlamış və 2005-ci ilə kimi davam

etmiş, daha sonra artım müşahidə edilsə də, 2015-ci ildən sonra yenidən azalma qeydə alınmışdır (qrafik 1). Azalma bütün rayonlar üzrə qeydə alınmışdır, lakin ən çox azalmaya Şəki (2063 nəfər), Xaçmaz (1545 nəfər) və Zaqatala (1402 nəfər) məruz qalmışdır.

Simal sərhəd rayonlarında doğulan uşaqların və ölənlərin statistikasına baxsaq görərik ki, 1990-cı il ilə müqayisədə 2020-ci ildə doğulan uşaqların sayı azalmış, ölənlərin sayı isə artmışdır. Olduqca ciddi problemlərin yarana biləcəyini göstərən bu demoqrafik göstəricilər gələcəkdə əhalinin təbii artımının daha da kəskinləşməsindən xəbər verir. Təbii artımın cins bölgüsünə gəldikdə isə son illərdə doğulan uşaqlar arasında oğlanların sayı çox olmuşdur. Tendensiyanın bu cür davam etməsi gələcəkdə demoqrafik tərkibdə arzuolunmaz fəsadlara- oğlanların evlənməsi üçün qız çatışmazlığı milli etnik tərkibin dəyişməsinə və s. nəticələrə gətirib çıxara bilər.

Son illər ailələrdə boşanma hallarının artması, qadınların qeyri-rəsmi nikahdan uşaq dunyaya gətirmələri ictimai problemə çevrilmişdir. Boşanmalar və qeyri-rəsmi nikahdan dünyaya gələn uşaqlar ailələrin dağılmasına, gələcəkdə nəslin artırılmasına (ailədə ikinci və ya üçüncü uşağın olmasına) birbaşa təsir edir. 2020-ci ildə şimal sərhəd rayonlarında 12233 uşaq dünyaya gəlmişdir ki, onlardan da 830 uşaq rəsmi nikahı olmayan 15-29 yaşlarında olan qadınlar tərəfindən olmuşdur. Bu olduqca yüksək göstəricidir. Qeyri-rəsmi nikahdan doğulan uşaqlar ümumi doğulanların 6,8%-ni təşkil etmişdir. Rayonlar üzrə ən yüksək göstərici Balakən (158 uşaq və ya ümumi doğulanların 12,1%-i) və Xaçmaz (251 uşaq, 9,4%), ən aşağı göstərici isə Zaqatalada (72 uşaq, 4,4%) qeydə alınmışdır. Kənd yerlərində qeyri-rəsmi nikahdan dünyaya gələn uşaqlar say etibarilə şəhər yerlərindən daha yüksəkdir. Bu erkən nikahların kənd yerlərində daha çox olması ilə əlaqədardır. Kənd yerlərində isə qız uşaqlarının erkən yaşlarında ailə qurmaları həm qanun pozuntusu, həm də gələcəkdə bir sıra digər problemlərin (ailənin sosial-iqtisadi vəziyyəti, təhsil və s.) yaranmasına səbəb olur.

Əhalinin yaş qruplarına görə ölüm hallarını təhlil etsək görərik ki, 0-4 yaş arası ölüm halları 5-44 yaşlarında olanlardan daha

yüksəkdir (qrafik 2). Bu olduqca ciddi demoqrafik problemlərdən biri hesab olunur. Uşaqlar arasında ölüm hallarının bu dərəcə yüksək olması gələcəkdə regional baxımdan şimal sərhəd rayonlarında əhalinin sayının azalmasına, kiçik kənd yaşayış məntəqələrinin, xüsusən dağlıq ərazilərdə məskunlaşmanın seyrəlməsinə, yaş tərkibinin ciddi şəkildə pozulmasına gətirib çıxara bilər.




**Qrafik 2. 2020-ci ildə Azərbaycanın şimal sərhəd rayonlarında yaş qrupuna görə ölənlərin sayı, nəfər.**

İkinci fəsildə həmçinin əhalinin mexaniki hərəkəti tədqiq olunmuşdur. Demoqrafik potensialın formalaşmasında əhalinin miqrasiyası mühüm rol oynayır. Tədqiq etdiyimiz 1999-2019-cu illər ərzində regiona 28995 nəfər gəlmiş, 72781 nəfər isə getmişdir. Gələnlərin 5466 nəfəri başqa ölkələrdən, 23529 nəfəri isə ölkənin digər inzibati rayonlarından gəlmişlər. Gələnlər ən çox Şəki, ən az isə Balakən inzibati rayonuna gəlmişlər. Gedənlərin sayına görə də Şəki rayonu öndədir. Belə ki, tədqiq etdiyimiz illər ərzində inzibati rayondan 18176 nəfər getmişdir, miqrasiya balansı -10485 nəfər olmuşdur. Ən az gedənlər isə Oğuz inzibati rayonunda 5019 nəfər qeydə alınmış, miqrasiya balansı isə -357 nəfər təşkil etmışdir. 1999-2019-cu illər ərzində şimal sərhəd rayonlarına 28995 nəfər gəlmiş, 72781 nəfər isə getmişdir. Bu illər ərzində regionda miqrasiya balansı -43786 nəfər olmuşdur.

Miqrasiya intensivliyi müəyyən bir ərazidə əhalinin miqrasiyasının həcmini və sürətini ölçən göstəricidir. Ona təsir edən amillər, əsasən, iqtisadi, təbii, siyasi- hüquqi və regional fərqlərdir. Miqrasiya intensivliyi aşağıdakı düsturla hesablanır:

$$\text{Mİ}=\frac{Miqrasiya\ say}{Ümumi\ əhali\ sayı}\times 1000 \qquad (1)$$

Burada Mİ – miqrasiya intensivliyi, hər 1000 nəfərə düşən miqrasiya; Miqrasiya sayı – müəyyən dövr ərzində gələnlərin və gedənlərin ümumi sayı;

Ümumi əhali sayı – həmin dövr ərzində ərazinin orta əhali sayıdır.

Miqrasiya əmsalı bir ərazidə miqrasiya proseslərinin intensivliyini və əhali sayına təsirini qiymətləndirmək üçün istifadə olunan göstəricidir. Bu əmsalı hesablamaq üçün düstur aşağıdakı kimi olur:

$$\text{MƏ}=\frac{Miqrasiya\ balansı}{Ümumi\ əhali\ sayı}\times 1000 \qquad (2)$$

Burada MƏ – miqrasiya əmsalı, hər 1000 nəfərə düşən miqrasiya sayı;

MB –gələnlərin sayı ilə gedənlərin sayı arasındakı fərq;

Ümumi əhali sayı – həmin dövr ərzində ərazinin orta əhali sayıdır.

Biz yuxarıdakı iki düstura (1 və 2) əsasən şimal sərhəd rayonlarında 1999-2019-cu illər ərzində miqrasiya intensivliyini və miqrasiya əmsalını hesablamışıq (cədvəl 1).

Cədvəldən də göründüyü kimi, şimal sərhəd rayonlarında 1999-2019-cu illər ərzində miqrasiya intensivliyi 125,3 olmuşdur. Yəni hər min nəfərə 125,3 nəfərlik miqrasiya hərəkəti qeydə alınmışdır. Miqrasiya əmsalı isə -54,0 olmuşdur. Regionda hər 1000 nəfərə əhali 54 nəfər azalmışdır. Miqrasiya intensivliyi daha çox Oğuz, Qax və Şəki inzibati rayonlarında, əhali azalması isə daha çox Qusar, Qax, Balakən rayonlarında olmuşdur. İnzibati rayonlarda miqrasiya intensivliyinin çox, əmsalının isə az olması həmin bölgəyə gələn və gedən əhalinin sayının bir-birinə yaxın olmasıdır.

**Cədvəl 1.**

**1999-2019-cu illər ərzində şimal sərhəd rayonlarında əhalinin miqrasiya balansı, miqrasiya intensivliyi və miqrasiya əmsalı**

| İnzibati rayonlar | Miqrasiya balansı | Miqrasiya əmsalı | Miqrasiya intensivliyi |
|---|---|---|---|
| Balakən | -6637 | -73,4 | 106,5 |
| Zaqatala | -4198 | -35,7 | 74,7 |
| Qax | -4278 | -79,3 | 174,0 |
| Şəki | -10485 | -61,7 | 152,3 |
| Oğuz | -357 | -8,9 | 242,0 |
| Qəbələ | -4693 | -50,0 | 117,5 |
| Qusar | -7717 | -86,3 | 136,3 |
| Xaçmaz | -5421 | -34,4 | 96,6 |
| Şimal sərhəd rayonları | -43786 | -54,0 | 125,3 |

**Mənbə:** Cədvəl miqrasiya əmsalı və miqrasiya intensivliyi düsturuna əsasən müəllifin şəxsi hesablamaları əsasında tərtib olunmuşdur.

Miqrasiya balansının mənfi dinamikası regionun sosial-iqtisadi inkişafının aşağı səviyyədə olması ilə əlaqələnir və bu gəlirlərin az, iş yerlərinin isə olmaması ilə bağlıdır. Müəyyən ixtisasa, təhsilə malik olan əmək qabiliyyətli yaşda olan əhali bu dövrdə ölkəni tərk edir və miqrasiya prosesi daha da ağırlaşır. Bu da regionda demoqrafik vəziyyətin xeyli pisləşməsinə səbəb olur. Əhali həm xarici ölkələrə, həm də ölkə daxilində iri şəhərlərə axın etmiş, əsas etibarilə kəndlərdə cavan nəslin sayı kəskin surətdə azalmışdır.

Miqrasiyanın yaranmasının əsas səbəblərindən biri də şəhərlə kənd arasında olan kəskin fərqdir. Kənd əhalisi öz həyat şəraitini yaxşılaşdırmaq və iş əldə etmək məqsədilə daha çox miqrasiya edir. Bu da bəzi kəndlərdə əhalinin sayının azalmasına gətirib çıxarır. Məsələn, 2009-2019-cu illər ərzində Qax rayonunda Qax İnqloy (936 nəfər), Balakən rayonunda Qasbinə (918 nəfər),

Zaqatala rayonunda Mahamalar (489 nəfər), Xaçmaz rayonunda Xanoba (315 nəfər) və s. kəndlərinin hər birində əhalinin sayı 300 nəfərdən çox azalmışdır (şəkil 2). Hətta 2009-cu ildə 44 nəfər əhalisi olan Qəbələnin Küsnət kəndi əhalinin miqrasiyası nəticəsində tamamilə boşalmışdır. Hazırda kənddə heç kim yaşamır. Əhalinin bu ərazilərdən miqrasiya etməsi regionun, eləcə də ölkənin milli təhlükəsizliyinə birbaşa təsir göstərir. Bunun qarşısını almaq üçün əhalinin miqrasiyası sahəsində milli konsepsiya və ya strategiya işlənib hazırlanmalıdır. Çünki demoqrafik təhlükəsizlik dövlətin geosiyasi maraqlarını təmin edən proseslərin məcmusudur. Bu proseslər isə özlüyündə ölkənin ərazi bütövlüyünə və milli təhlükəsizliyinə təsir göstərir. Azərbaycan Respublikası bu istiqamətdə qanun, qayda və proqramlar hazırlamış və onların icrasını həyata keçirir. Lakin bu sərhəd rayonlarında problemin tam şəkildə həll olunmasında yardımçı rolunu oynaya bilməmişdir.

İkinci fəslin bir bölməsi də əhalinin cins və yaş tərkibinin öyrənilməsinə həsr olunub. Yaş və cins strukturu inzibati-ərazi vahidinin sosial-iqtisadi əhəmiyyətini qiymətləndirməyə köməklik edir. Azərbaycanın şimal sərhəd rayonlarında kişilər və qadınlar arasında nisbət demək olar ki, eynidir. Əhalinin cins tərkibinin 1999, 2009, 2019-cu illər üzrə dinamikaına baxsaq görərik ki, şimal sərhəd rayonlarında 1999-cu ildə sayca qadınlar üstünlük təşkil edirdisə, 2009 və 2019-cu illərdə kişilərin və qadınların sayında bərabərlik müşahidə olunmuşdur. Regionun əhalisinin yaş tərkibinə nəzər salsaq görərik ki, 1999-cu illə müqayisədə 2019-cu ildə sakinlər arasında 0-19 yaşlıların payı 13,2% azalmış, 45-64 yaşlıların payı isə 12,8% artmışdır. Yəni demoqrafik tərkibdə qocalma prosesi getmişdir. Bunun əsas səbəbi təbii artımın aşağı olması, gənclərin yaşadıqları ərazilərdən miqrasiyasıdır.

Sərhəd rayonları respublikanın digər regionları ilə müqayisədə bitişik dövlətlərlə daha şox mədəni, iqtisadi və sosial əlaqələrə malik olan ərazilərdir. Bu ərazilərdəki əhali daha rəngarəng etnik və dini tərkibə malikdir. Azərbaycanın şimal sərhəd rayonlarında azərbaycanlılar (75,2%), Qusar rayonu istisna olmaqla, bütün rayonlarda üstünlük təşkil edirlər.




Mənbə: Xəritə iddiaçı tərəfindən tərtib edilmişdir.

**Şəkil 2.Azərbaycanın şimal sərhəd rayonunda əhalisinin sayı azalan yaşayış məntəqələri (2009-2019-cu illər), nəfər**

İkinci yeri 14,8%-lə ləzgilər tutur. Ləzgilərin 66,0%-i Qusar, 15,0%-i Xaçmaz rayonlarında cəmlənmişdir. Qusar rayonunda isə ümumi əhalinin 86,4%-ni ləzgilər təşkil edir. Bu siyahıda avarlar 5,5%-lə üçüncü yerdə durur. Onların 52,8%-i Zaqatala, 51,7%-i Balakən rayonlarında yaşayır. Saxurlar isə 1,5% olmaqla, əsas etibarilə Zaqatala (87,0%) və Qax (13,0%) rayonlarında mənkunlaşmışlar. Növbəti yerləri 0,9%-lə gürcülər, 0,5%-lə türklər, 0,4%-lə udinlər və digər millərlərin nümayəndələri təşkil edir.

**Cədvəl 2.**

**Azərbaycanın şimal sərhəd rayonlarında əhalinin milli-etnik tərkibinin dəyişməsi, nəfər (2009-2019-cu il)**

| Millətlər | 2009 | | 2019 | | 2009-2019 fərq |
|---|---|---|---|---|---|
| | Cəmi | %-lə | Cəmi | %-lə | |
| Azərbaycanlı | 584593 | 72,0 | 661645 | 75,2 | 77052 |
| Avar | 49483 | 6,0 | 48508 | 5,5 | -975 |
| Ləzgi | 132714 | 16,3 | 130185 | 14,8 | -2529 |
| Saxur | 12247 | 1,5 | 13308 | 1,5 | 1061 |
| Rus | 1510 | 0,2 | 932 | 0,1 | -578 |
| Gürcü | 7552 | 0,9 | 7908 | 0,9 | 356 |
| Udin | 3774 | 0,5 | 3513 | 0,4 | -261 |
| Yəhudi | 178 | 0,02 | 139 | 0,01 | -39 |
| Türk | 5632 | 0,7 | 3997 | 0,5 | -1635 |
| Tat | 9116 | 1,1 | 4028 | 0,5 | -5088 |
| Digər millətlər | 6286 | 0,8 | 5787 | 0,6 | -499 |
| Cəmi | 813085 | 100 | 879950 | 100 | 66865 |

**Mənbə:** Azərbaycan Respublikasının əhalisinin siyahıyaalınması 2019-cu il. Bakı, 2022.XIX cild.

2009-2019-cu illərdə şimal sərhəd rayonlarında əhalinin etnik tərkibinin dəyişməsi də tərəfimizdən araşdırılmışdır ( cədvəl 2). Bu illər ərzində azərbaycanlılar, gürcülər və saxurlardan basqa digər millətlərin sayında azalma müşahidə edilmişdir. Ən çox azalmaya isə tatlar məruz qalmışdır. Regionda onların sayı 10 il ərzində 5088 nəfər azalmışdır.

Dissertasiyanın 3-cü fəsli "**Azərbaycanın şimal sərhəd rayonlrında əhalinin məskunlaşma xüsusiyyəti və dinamikası**"na həsr olunmuşdur. Bu fəsildə əhalinin yüksəklik qurşaqları üzrə

yerləşməsi, kənd və şəhər məskunlaşması bölmələr üzrə tədqiq edilmişdir. Şimal sərhəd rayonlarında yaşayış məntəqələri -28 metrlə 2400 metr arasındakı mütləq yüksəkliklər arasında yerləşmişdir. Regionun dəniz səviyyəsindən -28 m hündürlükdə yerləşən ən aşagı məntəqəsi 121 nəfər (2019-cu il) əhalisi olan Meşəli qəsəbəsidir (Xaçmaz rayonu). Şimal sərhəd rayonlarında əhalinin ən çox cəmləndiyi yüksəklik qurşağı dəniz səviyyəsindən 201-500 m yüksəkliklər arasını əhatə edən dağətəyi-düzən ərazilərdir. Bu hündürlük qurşağının payına regionun məntəqələrinin 43,7%-i, ümumi əhalinin isə 46,1%-i düşür. Şəhər əhalisinin 38,4%-i, kənd əhalisinin isə 49,5%-i bu qurşaqda məskunlaşmışdır. Əlverişli təbii-coğrafi şərait və inkişaf etmiş infrastruktur sahələrinin olması burada əhalinin sıx məskunlaşmasına səbəb olmuşdur.

Tədqiqat regionumuzun ən az əhali məskunlaşan yüksəklik qurşağı 1501-2000 m və 2001- 2500 m mütləq yüksəkliklər arasıdır. Hündürlüyə qalxdıqca iqlim şəraitinin dəyişməsi, kənd təsərrüfatı ilə məşğul olmaq üçün əlverişli imkanların olmaması, soyuq ayların daha uzun çəkməsi, infrastruktur şəraitinin zəif olması və digər səbəblərə görə burada əhalinin məskunlaşması zəif olmuşdur. Hündürlüyü 2001-2500 m olan qurşaqda əhalisi 58 nəfər (2019-cu ildə) olan 1 kənd yerləşir. Bu mütləq hündürlüyü 2400 m olan Əlix kəndidir. Kənd 1999-cu ildə yaradılmışdır. Əlix kəndi həm şimal sərhəd rayonlarının həm də Azərbaycan Respublikasının ən yüksəkdə yerləşən yaşayış məntəqəsidir. Burada yaşayan əhali əsasən arıçılıq və heyvandarlıqla məşğul olur.

Ümumiyyətlə, 1999-2009-cu illər ərzində şimal sərhəd rayonlarında 19 yeni yaşayış məntəqəsi yaranmış, əhalinin sayı isə 69160 nəfər artmışdır. 2009-2019-cu illərdə isə 1 yaşayış məntəqəsi azalmış (Qazangül qəsəbəsi 2010-cu ildə Zaqatala şəhərinə birləşdirilmişdir), əhalinin sayı isə 66865 nəfər artmışdır.

Şimal sərhəd rayonlarının kənd məskunlaşma sistemi əhalinin 2019-cu ilin siyahıyaalınma məlumatlarına görə 561 kənd yaşayış məntəqəsi ilə təmsil olunur. Bu da respublika kənd məskənlərinin 13,2 %-ni təşkil edir. 2019-cu ilin məlumatlarına görə kənd yaşayış məntəqələrində 613526 nəfər əhali məskunlaşmışdır. Bu da Azərbaycanın kənd əhalisinin 13,6%-ni təşkil edir. 1999, 2009 və

2019-cu illərdə əhalinin ümumi siyahıyaalınma məlumatlarının göstəricilərinin təhlili göstərir ki, 1999-2009-cu illər ərzində kəndlərin sayı 14 ədəd artaraq 547-dən 561-ə çatmışdır. Ən çox artım Balakən inzibati rayonunda olmuşdur. Burada 5 yeni kənd: Göyəmtala, Darvazbinə, Abjit, Bayrambinə, Mazımqarışan yaranmışdır. 2019-cu ilin son siyahıyaalınma məlumatına görə bu kəndlərdə əhali yaşamır. 2009-2019-cu illər ərzində isə şimal sərhəd rayonlarında yeni kəndlər yaranmamış, əhalinin sayı 39505 nəfər artmışdır.

Şimal sərhəd rayonlarında 9 şəhər: Xaçmaz, Xudat, Qusar, Zaqatala, Balakən, Qax, Şəki, Qəbələ, Oğuz və 20 qəsəbə mövcuddur. 2022-ci ilin əvvəlinə olan məlumata görə bu şəhərlərdə 216,7 min, qəsəbələrdə isə 49,1 min nəfər əhali yaşayır. Ən çox qəsəbə Xaçmaz inzibati rayonunda yerləşir. Onların sayı 12-yə çatır. Qusar (Samur qəsəbəsi), Zaqatala (Əliabad qəsəbəsi) və Balakən rayonlarının (Qabaqçöl qəsəbəsi) hər birində müvafiq olaraq 1, Şəkidə 2 (Turan qəsəbəsi, Çələbixan qəsəbəsi), Qəbələdə 3 (Bum qəsəbəsi, Nic qəsəbəsi, Vəndam qəsəbəsi) qəsəbə vardır. Tədqiq etdiyimiz regionda əhalisinin sayına görə ən böyük şəhər məntəqəsi əhalisi 65,8 min nəfər (2022-ci ilin əvvəlinə) olan Şəki, ikinci böyük şəhəri Xaçmazdır. Şəhərdə 2022-ci ilin məlumatına görə 43,2 min nəfər əhali yaşayır. Şimal sərhəd regionunda əhalisinin sayına görə üçüncü məntəqə Zaqatala, sonrakı yerlərdə isə Qusar, Qəbələ, Qax, Balakən və Oğuz şəhərləri qərarlaşıb.

Şimal sərhəd rayonlarında 1999-cu ildə 17, 2022-ci ildə isə 29 şəhər yaşayış məntəqəsi olmuşdur. Belə ki, Qəbələ rayonundakı Vəndam, Nic və Bum kəndləri qəsəbə statusunu 1999-cu ildən sonrakı dövrlərdə almışdılar. Xaçmazda isə Aşağı Ləgər, Şimal, Dalğalı, Meşəli, Samurçay, Günəşli, Turist, Sahillər, Arzu, Yeni Həyat qəsəbələri isə 2009-cu il əhalinin siyahıyaalınması zamanı şəhər yaşayış məntəqələri sırasında olmuşdur. 2019-2022 dövründə keçən 2 ildə şimal sərhəd regionlarında şəhər əhalisinin sayı cəmi 1500 nəfər artmışdır. Ümumilkdə 1999-2022-ci illər arasında (23 ildə) şəhər əhalisinin ümumi artımı 68684 nəfər olmuşdur. Bu da həmin dövrdə Azərbaycanın şəhər əhalisinin artımının 5,3 %-ni təşkil edir.

4-cü fəsil "**Azərbaycanın şimal sərhəd rayonlarında demoqrafik inkişaf və məskunlaşmanın perspektiv**

**istiqamətləri”**nə həsr olunub. Azərbaycan Respublikasında əhalinin məskunlaşmasının demoqrafik bazasını əsasən yüksək doğum və orta ölüm əsasında formalaşan yüksək təbii artım təşkil etmişdir. Kənd yerlərində əhalinin məskunlaşmasında, müxtəlif səviyyəli əhali sıxlığı areallarının yaranmasında əsas mənbə təbii artım olsa da, şəhər yerlərində, xüsusilə də orta, böyük və iri şəhərlərdə bu prosesdə həm təbii, həm də miqrasiya artımı əhəmiyyətli rol oynamışdır. Şimal sərhəd rayonlarında əhali məskunlaşmasında olan çətinliklərdən biri də yol şəraitinin pis olmasıdır. Ucqar kəndlərdə bu problem özünü daha çox biruzə verir. Asfalt örtüyünün olmaması keçilməz dağ yollarında kənd sakinlərinə digər yaşayış məntəqələrinə, rayon mərkəzinə getməkdə çətinlik yaradır. Bundan başqa xəstəxana, məktəb, sakinlərin zəruri tələbatlarını ödəyən ərzaqlarla təminatı məsələlərini də həll etmək lazımdır. Ucqar kəndlərin bəzilərində məktəb yoxdur. Təhsil almaq istəyən uşaqlar qonşu kəndlərə gedirlər. Məsafənin uzaq olması, qış aylarında gediş-gəlişin çətinləşməsi bəzi ailələrin ucqar kəndləri tərk etməsinə səbəb olur. Onlar qonşu kəndlərə və ya rayon mərkəzlərinə köçürlər. Buna misal olaraq Qaxın Sarıbaş və Qusarın Yerği-kek kəndlərini göstərmək olar. Hər iki kənd dəniz səviyyəsindən 1500 m-dən də çox yüksəklikdə və Rusiya Federasiyası ilə sərhəddə yerləşir.

Tədqiq etdiyimiz regionunun sərhəd yaşayış məntəqəlrini və orada yaşayan əhalinin sayının dəyişməsini cədvəl 3 və şəkil 3-də görmək olar. Cədvəl 3-ün məlumatlarından da göründüyü kimi 2009-2019-cu illər ərzində Azərbaycanın şimal rayonlarının 65 sərhəd məntəqəsinin 19-da əhalinin sayı 1645 nəfər azlmışdır. Ən çox azalma Balakənin Qasbinə kəndində olmuşdur. Orda əhalinin sayı 10 ildə 918 nəfər azalmışdır. Azalma daha çox Rusiya ilə sərhəd olan yaşayış məntəqələrində olmuşdur ki, bunun da əsas səbəbi qonşu dövlətlə respublikamızın sərhədinin yüksək dağ silsilələri üzrə keçməsidir ki, bu da nəqliyyat-iqtisadi əlaqələri mümkünsüz edir. Amma zənnimcə 2023-cü ildə istifadəyə verilən yeni “Xanoba” sərhəd keçid məntəqəsi, bu məntəqəni Samur və Şirvanlı keçid məntəqələri ilə birləşdirən yolun əsaslı təmir olunaraq genişləndirilməsi gələcəkdə Qusarın bəzi sərhəd kəndlərindən əhalinin miqrasiyasının qarşısını alacaqdır.

**Cədvəl 3**

**Azərbaycanın şimal rayonlarında sərhəd yaşayış məntəqələri.**

| Sərhəd yaşayış məntəqələri (həmsərhəd dövlətlər göstərilməklə) | Hündürlük, metrlə | Dövlət sərhədindən məsafəsimetrlə | Əhali 2009-cu il | Əhali 2019-cu il | Əhali (fərq-artım və azalma) |
|---|---|---|---|---|---|
| **Balakən rayonu** | | | | | |
| 1. Mazımçay (Gürcüstan) | 450 | 670 | 358 | 365 | 7 |
| 2. Göyrüclük (Gürcüstan) | 400 | 5183 | 57 | 62 | 5 |
| 3. Bayrambinə (Gürcüstan) | - | 3515 | 0 | 0 | 0 |
| 4.Mazımqarışan (Gürcüstan) | - | 856 | 0 | 0 | 0 |
| 5.Qazbölük (Gürcüstan) | 440 | 3351 | 1000 | 1223 | 223 |
| 6.Abjit (Gürcüstan) | - | 3264 | 0 | 0 | 0 |
| 7.Şərif (Gürcüstan) | | 1451 | 3293 | 3526 | 233 |
| 8.Qaysa (Gürcüstan) | 213 | 4530 | 3602 | 3787 | 185 |
| 9. Darvazbinə (Gürcüstan) | - | 989 | 0 | 0 | 0 |
| 11.İtitala (Gürcüstan) | 194 | 1964 | 2240 | 2504 | 264 |
| 12.Poştbinə (Gürcüstan) | 270 | 2646 | 1273 | 1402 | 129 |
| 13.Göyəmtala (Gürcüstan) | - | 554 | 0 | 0 | 0 |
| 14. Solban (Rusiya) | 207 | 12996 | 514 | 444 | -70 |
| 15. Qasbinə (Rusiya) | 290 | 14945 | 2238 | 1320 | -918 |
| 16.Gərəkli (Gürcüstan) | 500 | 2987 | 3531 | 3575 | 44 |
| **Zaqatala rayonu** | | | | | |
| 1. Qəbizdərə (Rusiya) | 530 | 12155 | 245 | 256 | 11 |
| 2. Mişleş (Rusiya) | 250 | 14096 | 137 | 128 | -9 |
| 3. Car (Rusiya) | 650 | 12984 | 2506 | 2638 | 132 |
| 4. Cimcimax (Rusiya) | 1000 | 10929 | 388 | 412 | 24 |
| 5. Qalal (Rusiya) | 1030 | 10195 | 16 | 18 | 2 |
| 6. Əzgilli (Rusiya) | - | 11558 | 0 | 0 | 0 |
| 7.Aşağı Çardaxlar (Gürcüstan) | 188 | 2097 | 1093 | 1166 | 73 |
| 8. Kürdəmir (Gürcüstan) | 197 | 2620 | 182 | 217 | 35 |
| 9. Uzunqazmalar (Gürcüstan) | 195 | 3832 | 458 | 522 | 64 |
| 10.Muğanlı (Gürcüstan) | 200 | 4271 | 2628 | 2896 | 268 |
| 11.Kəpənəkçi (Gürcüstan) | 210 | 5093 | 996 | 1115 | 119 |
| 12.Mosul (Gürcüstan) | 208 | 4473 | 2939 | 3202 | 263 |
| **Qax rayonu** | | | | | |
| 1. Qındırğa (Gürcüstan) | 170 | 364 | 109 | 134 | 25 |
| 2. Lələli (Gürcüstan) | 170 | 379 | 476 | 523 | 47 |
| 3. Ağyazı (Gürcüstan) | 225 | 3464 | 628 | 627 | -1 |
| 4.Üzümlükənd (Gürcüstan) | 250 | 4702 | 75 | 51 | -24 |
| 5. Yeni İlisu (Gürcüstan) | 220 | 3850 | 215 | 186 | -29 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 6. Sarıbaş (Rusiya) | 1600 | 3685 | 132 | 114 | -18 |
| **Şəki rayonu** | | | | | |
| 1. Şin (Rusiya) | 1010 | 9885 | 1543 | 1585 | 42 |
| 2. Qumux (Rusiya) | 500 | 12316 | 1035 | 1038 | 3 |
| 3. Kiş (Rusiya) | 1175 | 10563 | 6687 | 7176 | 489 |
| Oğuz rayonu | | | | | |
| 1. Baş Daşağıl (Rusiya) | 1150 | 16812 | 1211 | 1164 | -47 |
| 2. Filfili (Rusiya) | 1130 | 12771 | 768 | 783 | -5 |
| **Qəbələ rayonu** | | | | | |
| 1. Qəmərvan (Rusiya) | 1125 | 14362 | 1944 | 1943 | -1 |
| 2. Laza (Rusiya) | 1350 | 18904 | 1095 | 1053 | -42 |
| **Xaçmaz rayonu** | | | | | |
| 1. Samurçay qəsəbəsi | -27 | 1689 | 49 | 42 | -7 |
| 2. Xanoba | 52 | 980 | 824 | 509 | -315 |
| 3. Zuxuloba | 75 | 1253 | 125 | 131 | 6 |
| 4. Ortaoba | 57 | 2044 | 498 | 533 | 35 |
| **Qusar rayonu** | | | | | |
| 1. Zuxuloba | 118 | 354 | 121 | 148 | 27 |
| 2. Əcəxuroba | 124 | 5607 | 221 | 252 | 31 |
| 3. Şirvanlı | 190 | 1596 | 1162 | 1126 | -36 |
| 4. Küfoba | 225 | 1154 | 438 | 438 | 0 |
| 5. Yeni Tahircal | 265 | 588 | 483 | 555 | 72 |
| 6. Samur qəsəbəsi | 230 | 1617 | 2054 | 2319 | 265 |
| 7. Zuxul | 165 | 389 | 414 | 447 | 33 |
| 8. Yuxarı Tahircal | 829 | 1870 | 449 | 529 | 80 |
| 9. Girik | 660 | 1530 | 1307 | 1449 | 142 |
| 10. Həzrə | 675 | 1599 | 1454 | 1561 | 107 |
| 11. Ləcət | 640 | 2672 | 693 | 796 | 103 |
| 12. Əlix | 2400 | 5227 | 86 | 58 | -28 |
| 13. Sudur | 1800 | 2263 | 459 | 446 | -13 |
| 14. Quxur | 1630 | 2718 | 52 | 27 | -25 |
| 15. Suduroba | 170 | 3845 | 308 | 406 | 98 |
| 16. Yuxarı Zeyxur | 480 | 2140 | 1020 | 1061 | 41 |
| 17. Nəcəfkənd | 700 | 1701 | 274 | 275 | 1 |
| 18. Aşağı Qələnxur | 670 | 1306 | 94 | 85 | -9 |
| 19. Yuxarı Qələnxur | 820 | 799 | 599 | 576 | -23 |
| 20. Quturğan | 1860 | 3646 | 283 | 258 | -25 |

**Mənbə:** Cədvəl müəllif tərəfindən tərtib olunmuşdur.




**Mənbə**: Xəritə iddiaçı tərəfindən tərtib edilmişdir.

**Şəkil 3. Sərhəd zonasında yerləşən yaşayış məntəqələri**




Mənbə: Xəritə iddiaçı tərəfindən tərtib edilmişdir.

**Şəkil 4. Sərhədyanı ərazilərin cəlbediciliyinə görə zonalaşdırılması.**

Biz həmçinin ilk dəfə olaraq şimal rayonlarının sərhədyanı ərazilərinin cəlbediciliyinə görə zonalaşdırılmasını da aparmışıq. Uyğun olaraq sərhəd mövqeyi baxımından cəlbedici əraziləri, nisbətən əlverişli əraziləri və əlverişsiz əraziləri ayırmışıq. Bunu şəkil 4-dən daha yaxşı görmək olar. I sərhəd zonası əlverişli iqtisadi-coğrafi mövqe, həmçinin tarixi keçmişdə və indi də mövcud olan tranzit yollarının üzərində yerləşməsinə görə ərazidə yaşayış məntəqələrinin sıx toplanmasına səbəb olmuşdur. Burada əhalinin artım tempi də demək olar ki, həmişə müsbət olmuşdur. II sərhəd zonasının əlverişli təbii şəraiti, münbit torpaqları olsa da, Zaqatala Dövlət Təbiət Qoruğunun bu zonada yerləşməsi yaşayış məntəqələrinin sayının artmasına imkan verməmişdir. III sərhəd zonası isə yüksək dağlıq ərazilər, qonşu dövlətlərlə nəqliyyat yollarının əlverişsiz olması səbəbindən daha az yaşayış məntəqələrinin toplanması ilə seçilir. Kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olma imkanlarının məhdudluğu, keçilməz dağ yollarının olması, həmçinin yaşayış məntəqələrinin rayon mərkəzlərindən uzaq məsafədə yerləşməsi bu zonada əhalinin sayının illər üzrə azalmasına da gətirib çıxarmışdır.

Milli təhlükəsizliyin möhkəmləndirilməsinin şərtlərindən biri də sərhəd regionlarının davamlı sosial-iqtisadi inkişafına nail olmaq, orada yaşayan əhalinin həyat səviyyəsinin qonşu ölkələrlə müqayisə ediləcək dərəcədə yüksəldilməsidir. "*Sərhəd regionlarının inkişaf etdirilməsi həm də ona görə vacibdir ki, sərhəd dövlətin "vitrinidir". O yalnız dövlətin əhatə etdiyi ərazinin konturlarını müəyyən etmir, həm də sosial quruluş, milli kimlik elementini təmsil edir və onun formalaşması üçün güclü bir vasitədir"*[4].

Dissertasiya işinin bu fəslində həmçinin əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması yollarından da bəhs edilir. Hazırda həyat səviyyəsini əks etdirən vahid ümumiləşdirici göstərici yoxdur. Dünya miqyasında həyat səviyyəsini müqayisə etmək üçün BMT-də 1990-cı ildən başlayaraq yeni göstəricidən istifadə olunur. Bu "insan potensialının inkişaf indeksi" və ya " İnsan İnkişafı İndeksi" (İİİ)

---

[4] В.А. Колосов « Современное Российское пограничье: проблемы изучения и некоторые выводы». Российское пограничье: проблемы развития в новых геополитических условиях. Москва- 2019, стр. стр.11.

göstəricisidir. Orta ömür müddəti əhalinin həyat keyfiyyətini müəyyən edən əsas göstəricilərdən biridir.

Dünyanın əksər İEÖ-də orta ömür müddəti 85 ildən yuxarıdır. Azərbaycanda 2022-ci ildə orta ömür müddəti 76,0 yaş, o cümlədən qadınlar üçün 78,4 yaş, kişilər üçün 73,6 yaş, şimal sərhəd rayonlarında isə orta ömür müddəti 75,8 qadınlar üçün 78,0 yaş, kişilər üçün isə bu göstərici 73,6 yaş olmuşdur ( qrafik 3).




**Qrafik 3. Azərbaycan Respublikasında və şimal sərhəd rayonlarında doğulanda gözlənilən orta ömür müddətinin tendesiyası.**

Əhalinin qidalanması, insanların bir çoxunun keyfiyyətli müalicə almaq imkanlarının olmaması da orta ömür müddətinə təsir edən amillərdəndir. Azərbaycanda əhalinin məşğulluğunun təmin edilməsi, həyat səviyyəsinin yaxşılaşdırılması məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 24 noyabr 2003-cü ildə "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" ilk fərmanını imzaladı. Bu fərmandan sonra, az vaxtda, 2004-cü il fevral ayının 11-də Azərbaycan Respublikası prezidentinin növbəti fərmanı ilə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edildi və bu proqramda 600 min yeni iş

yerinin yaradılması nəzərdə tutuldu. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramları 2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illəri əhatə edir. 2004-cü ildən uğurla icra olunan bu proqramlar regionlarda şəhər, qəsəbə və kəndlərin simasını köklü şəkildə dəyişmiş, regionların potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin və əhalinin rifahının yüksəlməsinə geniş imkanlar açmışdır.

Azərbaycanda 2004-cü ildən indiyə qədər bir neçə dövlət proqramlarının icra edilməsinə baxmayaraq hələ də respublikamızda regionlarin sosial-iqtisadi inkişafında qeyri-bərabərlik var. Bakı-Abşeron zonasından fərqli olaraq digər regionlarda əhalinin sosial-iqtisadi həyatında ciddi problemlər qalmaqda davam edir. Bu da rayonlarda işsizliyin və yoxsulluğun artmasına, əhalinin Bakı şəhərinə miqrasiyasına səbəb olur. Sərhəd regionları dövlət üçün strateji əhəmiyyət kəsb etdiyi üçün burada əhalinin işlə təminatına daha çox diqqət ayrılmalıdır. Sənaye istehsalı və iqtisadiyyatın bir çox sahələri inkişaf etdirilməlidir. Əks halda işsizlik, yoxsulluğun artması insanları dolanışıq üçün öz yaşayış yerlərini tərk etməsinə və kəndlərdə əhalinin sayının azalmasına gətirib çıxardacaq. Xüsusilə sərhəd kəndlərində əhalinin məskunlaşması siyasəti aparılmalıdır. Belə olmadığı təqdirdə gələcəkdə bu daha çətin, qarşısıalınmaz sosial-iqtisadi nəticələrə gətirib çıxaracaq.

## NƏTİCƏ

Azərbaycanın şimal sərhəd rayonlarının demoqrafik və məskunlaşma problemlərinin tədqiqi əsasında aşağıdakı nəticələrə gəlmək olur:

1. Azərbaycanın şimal sərhəd rayonlarının Xəzər dənizindən Böyük Qafqaz dağları boyu uzanan geniş ərazi potensialı (məskunlaşma amplitudu 2428 metrdir), dağlıq və düzən relyefi özündə birləşdirən, əlverişli iqlim şəraiti, bol aqroiqlim ehtiyatı, çox sayda çay hövzələrinə və bitki örtüyünə malik olması, ərazinin mənimsənilməsinə və məskunlaşmasına müsbət, keçilməz dağ

yolları, yüksək dağlıq ərazilərdə infrastruktur sahələri ilə təminatın zəif olması isə bu prosesə mənfi təsir edən əsas faktorlardır.

2. Sərhədboyu bölgələr bir neçə istiqamətdə öyrənilir. Biz bu istiqamətləri araşdıraraq 4 qrupda cəmləmişik: siyasi-coğrafi, tarixi-coğrafi, fiziki-coğrafi və iqtisadi-coğrafi istiqamət.

3. 2000 və 2021-ci illər ərzində Azərbaycanın şimal sərhəd rayonlarında əhalinin təbii artımı və doğum göstəriciləri azalmış, ölüm göstəriciləri isə artmışdır. Belə ki, 2000-ci ildə təbii artım 7067 nəfər olduğu halda 2020-ci ildə bu göstərici azalaraq 5558 nəfər olmuşdur. Şimal sərhəd rayonlarında 2000-ci illə müqayisədə 2020-ci ildə doğulan uşaqların sayı 17 nəfər azalmış, ölənlərin sayı isə 1492 nəfər artmışdır. Bu tədqiqat apardığımız regionun bütün rayonlarında baş vermişdir. Olduqca ciddi problemlərin yarana biləcəyini göstərən bu demoqrafik göstəricilər gələcəkdə əhalinin təbii artımının daha da kəskinləşməsindən xəbər verir və müvafiq proqramların hazırlanmasını tələb edir.

4. 2004-cü ildən indiyə qədər bir neçə dövlət proqramlarının icra edilməsinə baxmayaraq şimal sərhəd rayonlarında əhalinin sosial-iqtisadi həyatında ciddi problemlər qalmaqda davam edir. Bu da rayonlarda işsizliyin və yoxsulluğun artmasına, əhalinin Bakı şəhərinə miqrasiyasına səbəb olur. Əhalinin tərkibində yaşlı əhalinin payı artır, cavanların və uşaqların payı isə azalır. Şimal sərhəd rayonlarında əhalinin yaş tərkibinə nəzər salsaq görərik ki, 1999-cu illə müqayisədə 2019-cu ildə sakinlər arasında 0-19 yaşlıların sayı 13,2% azalmış, 45-64 yaşlıların payı isə 12,8% artmışdır. Bunun da əsas səbəbi təbii artımın aşağı olması, gənclərin yaşadıqları ərazilərdən miqrasiyasıdır. Miqrasiyanın ən yüksək göstəricisi Şəki inzibati rayonunda olmuşdur. Bu illərdə miqrasiya saldosu -10485 nəfər təşkil etmişdir. Ən az gedənlər Oğuz inzibati rayonunda 5019 nəfər qeydə alınmış, miqrasiya saldosu isə -357 nəfər təşkil etmişdir. 1999-2019-cu illər ərzində şimal sərhəd rayonlarına 28995 nəfər gəlmiş, 72781 nəfər isə getmişdir. Bu illər ərzində regionda miqrasiya saldosu -43786 nəfər olmuşdur. Miqrasiya intensivliyi isə 125,3 olmuşdur. Yəni hər min nəfərə 125,3 nəfərlik miqrasiya hərəkəti qeydə alınmışdır. 1999-2019-cu illər ərzində miqrasiya əmsalı isə -54,0 olmuşdur. Regionda hər 1000 nəfərə əhali 54 nəfər azalmışdır.

5. Yüksək dağlıq ərazilərdə əlverişsiz təbii şərait, iş yerlərinin çatışmaması, yanacaq, həmçinin infrastruktur sahələri təminatın zəif olması, və s. üzündən burada əhali digər yaşayış məntəqələri ilə müqayisədə daha çox miqrasiyaya məruz qalır. Bu da şimal sərhəd rayonlarında 100-ə yaxın yaşayış məntəqəsində əhalinin sayının azalmasına gətirib çıxarmışdır. Kənd yaşayış məntəqələrinin bəziləri isə (Sarıbaş, Əlix, Küsnət) ümumiyyətlə boşalır ki, bu da sərhəd rayonları üçün yolverilməzdir. Mövcud olan bu problemlər nəticəsində şimal sərhəd rayonlarında 1999-2019-cu illərdə 1000 metrdən yüksək ərazilərdə əhalinin sayı 611 nəfər, sərhəd yaşayış məntəqələrində isə 1645 nəfər azalmışdır. Hətta, 1125 metr yüksəklikdə yerləşən Qəbələnin Küsnət kəndində əhalinin sayı 2009-cu ildə 44 nəfər olsa da hazırda kənddə heç kim yaşamır.

6. Regional baxımdan daha çox əhali Şəki və Xaçmaz rayonlarında məşkunlaşmışdır. Şəki və Xaçmaz rayonlarında son 21 ildə əhalinin sayı digər rayonlarla müqayisədə artımı üstün olmuş və hazırda ümumi əhalinin 40,6%-i onların payına düşür. Əhalinin artımında ən yüksək göstəricilərdən birinə Xaçmaz, orta artıma Şəki rayonu malik olsa da, əhalinin illik təbii artım tendensiyası hər iki rayonda ən çox azalmaya məruz qalmışdır. Bu azalma gələcəkdə hər iki rayonda əhalinin sayına, sıxlığına, onun strukturuna və məskunlaşmaya təsir edəcəkdir. Məsələn, Xaçmaz inzibati rayonunun 5019 nəfər (2009-cu il) əhaliyə malik olan ən böyük kəndi Qusarçayda əhalinin sayı 10 il ərzində 105 nəfər azalaraq 4914 nəfər (2019-cu il) təşkil etmişdir. Ümumilkdə 2009-2019-cu illər ərzində şimal sərhəd rayonlarının 5 qəsəbə və 88 kəndində əhalinin sayı 5785 nəfər azalmışdır.

## TƏKLİFLƏR

1. Sərhəd regionları dövlət üçün strateji əhəmiyyət kəsb etdiyi üçün burada əhalinin işlə təminatına daha çox diqqət ayrılmalıdır. Öz geosiyasi mövqeyinə görə fərqlənən şimal sərhəd rayonları təbii, iqtisadi və turizm-rekreasiya resursları ilə zəngin, həmçinin xarici iqtisadi əlaqələr baxımından da fəal bir bölgədir. Burada hər bir rayonun, hətta kənd və qəsəbələrin fərqli, özünəməxsus tarixi və mədəni xüsusiyyətləri olduğundan, ayrı-ayrı bölgələrdə infrastruktur

sahələrini inkişaf etdirməklə turizm sektorunu daha da genişləndirərək yerli əhalinin məşğulluğunu qismən də olsa təmin etməklə, onların miqrasiyasının qarşısını almaq olar. Bu rayonun strateji sərhəd mövqeyi baxımından da əhəmiyyətlidir.

2. Tədqiq etdiyimiz regionun bir sıra yaşayış məntəqələrində əhalinin sayının azalması həmin yerlərdə sosial-iqtisadi bazanın tənəzzülə uğraması ilə əlaqədardır. Ona görə də həmin məntəqələrin dirçəldilməsi istiqamətində rayon səviyyəsində kompleks işlər görülməlidir. Əhalinin zəif məskunlaşdığı dağlıq, xüsusilə də yüksək dağlıq ərazilərdə məhsuldar qüvvələrin inkişaf səviyyəsi yüksəldilməlidir. Əmək tutumlu təsərrüfat sahələrinin üstün inkişafı təmin edilməlidir. Regionda rayon mərkəzləri ilə kənd yaşayış məntəqələri arasında nəqliyyat əlaqələrnin fəaliyyəti ilin bütün fəsillərində təmin olunmalıdır. Şimal sərhəd rayonlarının əlverişli coğrafi məkanda (tranzit əhəmiyətli yolların üzərində) yerləşməsi avtomobil yolları şəbəkəsinin beynəlxalq standartlara uyğun inkişafını və bu sahədə müəyyən tədbirlərin həyata keçirilməsini zəruri edir. Sərhəd regionlarında nəqliyyat infrastrukturunun az effektli və əlverişsiz olması bütünlükdə ölkənin beynəlxalq əməkdaşlığında problemlərə gətirib çıxara bilər. Nəqliyat və kommunikasiya sferası sərhədyanı əməkdaşlıqda mühüm rollardan birini oynayır.

3. Şimal sərhəd rayonlarının milli-etnik xüsusiyyətlərini, coğrafi mövqeyini, ərazinin strateji əhəmiyyətini nəzərə alaraq qonşu həmsərhəd dövlətlər ilə sərhədlərin delimitasiyası və demarkasiyası proseslərinə xüsusilə fikir vermək lazımdır. Bəzi yüksək dağlıq ərazilərdə əlverişsiz təbii şəraiti nəzərə alaraq sərhəd kəndlərinin tamamilə boşalmaması, onların sosial-iqtisadi, sosial-mədəni inkişafı üçün burada yaşayan əhaliyə müəyyən güzəştlərin verilməsi məqsədəuyğundur. Çünki bu kəndlər regionda bir növ sərhəd gözətçisi rolunu oynayır.

**Dissertasiya mövzusu üzrə çap olunmuş elmi işlər.**


1. Abdullayeva G.İ. Lənkəran-Astara iqtisadi –coğrafi rayonunda əhalinin yüksəklik qurşaqları üzrə məskunlaşması dinamikası və onun tənzimlənməsi istiqamətləri //-Bakı:Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri,- 2012, XVII cild, s.375-380 (həmmüəlliflər Əyyubov N.H, Paşayeva N.B, Kərimova İ.N).
2. Abdullayeva G.İ Şəki-Zaqatala iqtisadi rayonunda əhalinin yüksəklik qurşaqları üzrə yerləşməsi //- Bakı: Avropa, Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri, -2013. XVIII cild, s. 376-380.
3. Abdullayeva G.İ Şəki-Zaqatala iqtisadi rayonunda əhalinin məşğulluq quruluşu və onun tənzimlənməsi istiqamətləri.// Ümummilli lider H.Ə.Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş Respublika Elmi Konfransı,- Bakı-2013,- s. 283-286.
4. Абдуллаева Г.И, Основные направления социально-демографического развития северных приграничных районов Азербайджанской Республики //- Симферополь: Экономика Крыма. Научно-практический журнал, -2013, №4 (45), - с. 197-203.
5. Абдуллаева Г.И. Агроэкологическая ситуация в низменных и предгорных регионах Азербайджанской Республики // Географические проблемы туризма, краеведения и экологии: Материалы Международной научно-практической конференции,-Алматы,- 12-13 мая, -2014,- с. 104-106 (həmmüəlliflər Алиева С.Г, Аббасова В.З).
6. Abdullayeva G.İ Azərbaycanın şimal sərhəd rayonlarında əhali məşğulluğunun mövcud vəziyyəti və inkişaf meylləri // Bakı: Gənc alimlərin əsərləri,- 2014, №10, s. 70-74.
7. Abdullayeva G.İ Sərhədboyu ərazilərdə əhali məskunlaşmasının strateji və geosiyasi zəruriliyi (şimal sərhəd rayonları timsalında) // "Coğrafiya: nəzəriyyə, praktika və innovasiya" mövzusunda respublika elmi konfransı,- Bakı: BDU, -2015 s. 251-255.
8. Abdullayeva G.İ Şəki-Zaqatala iqtisadi-coğrafi rayonunda

əhalinin yüksəklik qurşaqları üzrə yerləşməsi: meyillər və təkmilləşdirilmə //-Bakı: Avropa, Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri, Coğrafiya və təbii resurslar,-2015. №1,- s. 79-82. (həmmüəllif Əyyubov N.H).

9. Abdullayeva G.İ Azərbaycanın sərhədyanı ərazilərində əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması yolları //- Bakı: Pedaqoji Universitet Xəbərləri, -2015, №1, s. 124-127.
10. Abdullayeva G.İ Dağlıq Şirvan iqtisadi-coğrafi rayonunda əhalinin yüksəklik qurşaqları üzrə yerləşməsi və onun tendensiyası // - Bakı: Avropa, Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri, - 2017. XIX cild, - s.321-327 (həmmüəllif Əyyubov N.H).
11. Abdullayeva G.İ Azərbaycanın qərb sərhədboyu ərazilərinin demoqrafik inkişaf xüsusiyyəti və problemləri (Şəki-Zaqatala iqtisadi-coğrafi rayonu timsalında) // "Bazar iqtisadiyyatı şəraitində torpaq idarəçiliyi: nailiyyətlər və müasir çağırışlar mövzusunda" respublika elmi konfransı,- Bakı: Avropa -7 may, -2018,- s. 51-61(həmmüəllif Əyyubov N.H).
12. Abdullayeva G.İ Şəki-Zaqatala iqtisadi-coğrafi rayonunda kənd əhalisinin demoqrafik inkişaf xüsusiyyətləri və onun tənzimlənməsi // "Azərbaycanda və Rusiyada insan coğrafiyası: XXI-ci əsrdə inkişafın əsas yolları" mövzusunda ictimai coğrafiyaçıların beynəlxalq (Azərbaycan-Rusiya) elmi konfrans, - Bakı: Avropa, 10-14 may, -2019, s. 147-155 (həmmüəllif Əyyubov N.H).
13. Абдуллаева Г.И Особенности расселения сельского населения в Шеки-Загатальском экономичеслом районе // "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında təbii təsərrüfat sistemlərinin təşkili və idarə edilməsi" mövzusunda elmi-praktiki konfrans, - Bakı: [n.y], -26 aprel,- 2022,- s. 174-181.
14. Abdullayeva G.İ Şimal sərhəd rayonlarının turizm-rekreasiya ehtiyatları və onlardan istifadənin müasir vəziyyəti // "Coğrafiya müasir problemləri: Elm və təhsilin inteqrasiyası" mövzusunda beynəlxalq elmi-praktiki konfrans,- Bakı: [n.y], - 29-30 noyabr- I cild, -2022, s. 182-185.

15. Абдуллаева Г.И Особенности естественного прироста населения в северных приграничных районах Азербайджана // “Географические аспекты устойчивого развития регионов” V Международный научно-практический конфранс,– Гомель: - 25-26 май, - 2023. с. 40-45.
16. Абдуллаева Г.И Особливості розвитку містов у північних примежних районах Азербайджану і регулювання їх розвитку // - Хмельницький: Вісник Хмельницького національного університету, -2023. № 5, с. 163-169
17. Abdullayeva G.İ Migration of population in the northern border regions of Azerbaijan//- Київ: Київський Національний Університет імені Тараса Шевченка. Науковий журнал Географія та Туризм-2023. №72,- с. 48-52.
18. Абдуллаева Г.И Демографическое развитие сельского населения и его регулирование в северных приграничных районах Азербайджана //- Воронеж: Вестник Воронежского Государственного Университета. Серия География. Геоэкология, - 2024. № 3, с. 35-41.

Dissertasiyanın müdafiəsi 02 may 2025-ci il tarixində saat 11⁰⁰-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin Coğrafiya fakültəsi nəzdində fəaliyyət göstərən FD 2.51 Dissertasiya Şurasında keçiriləcəkdir.

Ünvan: Bakı şəhəri, akademik Zahid Xəlilov küçəsi 23, AZ1148, Bakı Dövlət Universiteti, əsas bina.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir. http://bsu.edu.az

Avtoreferat 18 mart 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 05.03.2025

Kağızın formatı: A5

Həcm: 43621

Tiraj:100